# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KƏND TƏSƏRRÜFATININ BƏRPA VƏ İNKİŞAFI

**Elçin Zeynalov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi*

Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ regionunun torpaq-iqlim şəraiti, əlverişli su təminatı və coğrafi mövqeyi kənd təsərrüfatının inkişafı üçün böyük potensial imkanlara malikdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 1980-ci illərdə bölgədə 139.8 min hektar əkin sahəsi mövcud olmuşdur. Əkinlərin strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil edirdi.

Həmin dövrün rəsmi statistik göstəricilərinə əsasən, eləcə də Ağdam, Füzuli rayonlarının işğala məruz qalmayan faktiki sahələri nəzərə alınmadan perspektiv dövr üçün sözügedən ərazilərdə 155 min hektar sahədə əkin imkanı mövcuddur.

Hazırda ölkədə taxılçılıq və üzümçülüyün faktiki inkişaf dinamikası nəzərə alınmaqla, taxıl və üzüm istehsalında bu bölgənin payının təqribən eyni səviyyədə olması gözlənilir. Həmçinin, ənənəvi sahələrin bərpası ilə yanaşı, bölgədə kartof, tərəvəz, bostan və yem bitkiləri əkinlərinin genişləndirilməsi imkanları böyükdür.

İşğaldan azad edilən rayonlarda ənənəvi sahələrlə yanaşı, perspektiv dövrdə meyvə və tərəvəzçiliyin, həmçinin heyvandarlığın yem təminatı baxımından yem bitkiləri sahəsinin inkişafı da nəzərdə tutula bilər.

Bitkiçilik sahəsinin ənənəvi və perspektiv istiqamətlərinin bərpası ilə bərabər, regionda heyvandarlıq sahəsinin inkişafına daha çox üstünlük verilməsi təbii-iqlim və relyef xüsusiyyətləri cəhətindən daha əlverişli hesab edilir. Statistik məlumatlara əsasən, 1980-ci illərdə həmin bölgədə 321 min baş iribuynuzlu və 1.1 milyon baş xırdabuynuzlu heyvan mövcud olmuşdur ki, perspektiv dövrdə bu sayın müvafiq olaraq iribuynuzlu heyvanlar üzrə 430 min, xırdabuynuzlu heyvanlar üzrə 1.6 milyon başa çatdırılması imkanları vardır.

İşğaldan azad edilmiş ərazilərdəki mövcud çayların su sərfiyyatının illik miqdarı 600 mln $m^3$-dən artıq su ehtiyatının formalaşmasına imkan verir ki, bu da minimum 100 min hektar əkin sahəsinin suvarılmasında istifadə oluna bilər. Həmin su ehtiyatları düzgün dislokasiya edilməklə ölkədə su problemləri yaşanan digər rayonların əkin sahələrinin suvarılmasında da istifadə edilə bilər.

Hazırda işğaldan azad edilmiş rayonların ərazilərində kənd təsərrüfatının inkişafı sahəsində mühim tədbirlərin görülməsi, o cümlədən kənd təsərrüfatı uqodiya növlərinin müəyyən edilməsi və xəritələşdirilməsi, payızlıq və yazlıq əkin işləri ilə yanaşı, ərazidəki çoxillik əkmələrin vəziyyətinin yerində müəyyən edilməsi və nəticəsi barədə müvafiq tədbirlərin görülməsi istiqamətində kompleks işlər görülməkdədir.